Səh. 2 Noyabr mənzərəsi – Afiq Muxtaroğlu

Səh. 3 YTB nümayəndəsi ilə müsahibə

Səh. 5 Yeni (yenə) il (iy) gəlir – Çiyalə Osmanova

Səh. 6 Gələcəyin harayı və ya divarlarımızdakı boşluqlar – Esmira Ələkbərli

Səh. 2 Beşikdən məzara tərbiyə – Lamiyə Hacıyeva

Səh. 4 GÜRCÜSTANDA ŞAGİRDLƏRİN OXUMAQ VƏ RİYAZİYYAT ÜZRƏ NAİLİYYƏTİ AZALIB

Səh. 7 "Koroğlu"nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR

2023-CÜ İL

№ 023 (194)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## ŞALVA PAPUAŞVİLİ: BİZİ BİRLƏŞDİRƏN TƏKCƏ DOSTLUQ, STRATEJİ TƏRƏFDAŞLIQ DEYİL, QARDAŞLIQDIR



Azərbaycan və Gürcüstan arasında iki ölkəni birləşdirən möhkəm qardaşlıq var. Bunu Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili Azərbaycana səfərini şərh edərkən deyib.

O bildirilib ki, Bakıya səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Milli Məclisin sədri Sahibə Qafarova və Baş nazir Əli Əsədovla görüşüb. Bu görüşlər çox məhsuldar olub.

"Bütün bu görüşlərdə, təbii ki, ölkələrimiz arasında münasibətlərdə mövcud olan mənəvi istək xüsusi vurğulandı. Bildirildi ki, bizi birləşdirən təkcə dostluq, strateji tərəfdaşlıq deyil. Bizi birləşdirən qardaşlıqdır. Biz çətin anlarda bir-birimizə dəstək olan, bir-birinin sevincini bölüşən dostlarıq", – deyə parlament sədri vurğulayıb.

## ARÇİL TALAKVADZE: REGİONUN GƏLƏCƏYİ GÜRCÜSTAN VƏ AZƏRBAYCAN DOSTLUQ VƏ ƏMƏKDAŞLIĞINDAN ASILIDIR



Bütün regionun gələcəyi Gürcüstan və Azərbaycan arasındakı dostluq və əməkdaşlıqdan asılıdır. Bunu Gürcüstan Parlamentinin vitse-spikeri Arçil Talakvadze deyib. O, Gürcüstanın parlament nümayəndə heyətinin Azərbaycana səfərinin müsbət keçdiyini qeyd edib.

Talakvadze birgə iqtisadi, infrastruktur, turizm layihələrinin, həmçinin ticarət əlaqələrinin iki ölkəni bir-birinə bağladığını və bunun vacib olduğunu qeyd edib: "Hər iki hökumət xalqlarımız üçün strateji tərəfdaşlığımızın daha effektiv olması üçün hər şeyi edir".

Talakvadze Gürcüstanın regionda uzumüddətli sülhü dəstəklədiyini, Azərbaycan və Ermənistan arasında danışıqlara töhfə verməyə hazır olduğunu vurğulayıb.

O, Baş nazir İrakli Qaribaşvilinin və Gürcüstan hökumətinin sülh razılaşmasına vasitəçilik üçün hər şeyi etdiyini deyib.

"Gürcüstan həmişə Azərbaycan və Ermənistanın bir-biri ilə danışdığı məkan olub. Bu gün bizim vasitəçiliyimiz, bizim iştirakımız həqiqətən zəruridir və burada, Bakıda biz bir daha tərəfdaşlarımızdan eşitdik ki, onlar Gürcüstanın sülh sazişi prosesində iştirakını yüksək qiymətləndirirlər və alqışlayırlar. Bu razılaşma regiona – Azərbaycana, Ermənistana və Gürcüstana lazımdır", – deyə Talakvadze bildirib.

## AVROPA İTTİFAQI ŞURASI GÜRCÜSTANA NAMİZƏD ÖLKƏ STATUSU VERİB



Avropa İttifaqı (Aİ) Şurası Gürcüstana namizəd ölkə statusunun verilməsi barədə qərar qəbul edib. Bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dekabrın 14-də "X" platformasındakı paylaşımında məlumat verib.

"Avropa Şurası Gürcüstana namizəd statusu verib. Aİ həmçinin Bosniya və Herseqovina ilə danışıqlara həmin ölkə tərəfindən üzvlük meyarlarına tələb olunan uyğunluq səviyyəsinə nail olduqdan sonra başlayacaq, bunun üçün biz Avropa Komissiyasına mart ayında hesabat təqdim etməyi tapşırmışıq və bununla bağlı qərar qəbul ediləcək", – deyə Ş.Mişel qeyd edib.

Aİ ölkələri həmçinin Ukrayna və Moldovanın icmaya qəbulu ilə bağlı danışıqlara başlamaq qərarına gəliblər.

## MÜƏLLİMLƏRİN YENİ ƏMƏKHAQQI SİYASƏTİ MƏLUMDUR



Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari dekabrın 12-də təqdimatda müəllimlərin yeni əməkhaqqı siyasətinin təfərrüatlarından danışıb.

Onun sözlərinə görə, 8200 müəllimin əməkhaqqı 400 laridən, 14053 müəllimin əməkhaqqı 500 laridən, 7114 müəllimin əməkhaqqı 600 laridən, 1648 müəllimin əməkhaqqı 800 laridən, 917 müəllimin əməkhaqqı isə 900 laridən çox artırılacaq.

"Hazırkı aparıcı və mentor müəllimlər statusunu saxlayır və onlar funksiyaya uyğun əlavə əməkhaqqı alacaqlar, bu, dərs saatına bağlı olmayacaq. Məktəblərin inzibati heyətinin əməkhaqqı 10 faiz, texniki heyətinin əməkhaqqı isə 10-50 faiz artırılacaq", – sənəddə qeyd olunub.

*Mənbə: etaloni.ge*



# NOYABR MƏNZƏRƏSİ

"Pəncərə"dəyəm. Müəllimlər iki dərs arasındakı boşluğu belə adlandırırlar. Dərslər arasındakı bir saatlıq fasiləni müəllimlər otağında başımı nəyləsə qatmaqla keçirmək istəyirəm.

Pəncərənin önünə gəlişim əlhavasına olur. Otağın günbatan tərəfindəki pəncərədən qarşımda açılan mənzərə necə olursa məni özünə kilidləyir. Kənd evlərinin bozluğu boğucu olsa da, arada gözümə sataşan sarının qırmızı ilə birləşərək yaratdığı qarışıq rəng mənzərənin birovuzluğuna, boğucu bozluğuna meydan oxuyur. Kiminsə bağında yarpaqlarını tökmüş xurma ağaclarına əl vurulmamış, sarıdan ötüb qırmızıya çalan meyvələri uzaqdan göz oxşayır.

Niyə yığıb satmırlar? Bir məndən soruşan gərək nəyinə lazımdır, yığmırlar, satmırlar sənə nə? Bəlkə yığanı yoxdur, bəlkə heç ehtiyacı yoxdur adamın, bəlkə quşlara qışlıq saxlayıb? Hər nədirsə, əritməyib kərə yeyir, sən niyə narahat olursan ki, bax, bunu anlamıram? Özümü danlayıb, itdən alıb, itə verirəm. Yaxşı da, dedim, deməmiş olum, dilimin altından qanmı alacaqsan? Danlayan tərəfimi bir yolla sakitləşdirməyə çalışıram.

Ceviz, gilas, gilənar ağaclarının yarpaq tökümü hələ başlamayıb. Hələ bu heyva ağacına baxsan, elə bil üstündən nə yay keçib, nə də payızın yarıdan çoxu. Bir yarpağına da xal düşməyib. Belə də payızmı olar? Noyabrın bitməsinə nə qalıb? Hələ nə şaxta var, nə qar. Göydən bir damcı düşmür. Deyərsən ki, yazdır. Bir də gördün ağaclar çiçəkləyəcək. Olmayan işdimi? O illər alma ağacları payız öynü çiçəkləməmişdimi? Yəqin qlobal istiləşmənin zibilidir. Belə getsə, axırımız necə olacaq? Yaxşı, sən canın, qonşuya qarın ağrısı gələndə sənin tumanbağın niyə əlində qalır ki?

Bir ara yükləmək üçün şəbəkəyə qoşduğum telefonumun boğuq səsi məni payız mənzərəsindən, özümü danlamaqdan ayırsa da, səsi tez kəsilir. İşıq sönməyib. Görünür ya enerji yığmır, ya da başqa dərdi var. Orasını da deyim ki, telefonum son vaxtlar özünü bədəninə damcı dərmanı yeridilməsə o dünyalıq olacaq xəstə kimi aparır və mən hara getsəm onu şəbəkəyə qoşmalı oluram. Şəbəkədən ayırdınmı canı çıxacaq. Deyərsən ki, dializə bağlı böyrək xəstəsidir, nə bilim süni nəfəs aparatına qoşulan insult keçirmiş, son günlərini yaşayan qocadır.

Kəndin başındakı anbar və ya su anbarı adlandırdığımız hündür qüllə özünü gözə soxur. Onun elmi necəsə adlandırılması mütləq var, amma mən bilmirəm. Qüllə qarşımda açılmış mənzərənin ən hündür nöqtəsi kimidir. Əslində elektrik stansiyasının tüstü boruları bizim qüllədən bir neçə dəfə hündür olmalıdır. Onlar uzaqda olduqlarından bizim qüllə daha hündür görünür. Gözbağlayıcıların yaratdıqları illüziya kimi bir şeydir. Bunu fizikadanmı öyrənirdik? Eh, nə mənası var, guya fizikadan öyrənməsəydik, mənzərə başqa cürmü görünəcəkdi? Qüllənin üzərinə bərkidilmiş ötürücülər uzaqdan ağ göyərçinləri xatırladır. Kəndi bir zamanlar su ilə təmin edən bu nəhəng qurğu artıq müxtəlif operatorların ötürücüsü kimi bizi dünyaya bağlayır. Bu qüllə bir növ kəndin beyin mərkəzidir.

Uzaqdan elektrik stansiyasının başından duman kimi buxar yüksələn, nəhəng vulkan kraterinə bənzəyən qazanlarını seçmək o qədər də çətin deyil. Deyərsən kimsə o nəhəng qazanların altında ocaq çatıb, dovğa bişirir və ya minlərlə qonağı eyni vaxtda yola salmaq üçün asılmış toy qazanlarıdır. O qazanlardan yüksələn dumanabənzər buxar topaları bir ara fikrimi məşğul edir. Buxarın üzü göyə yüksəlişini seyr edərək, istixana effekti barədə düşünürəm. İnsanın öz əməlinin öz ayağına dolaşdığını, öz əməlinin qurbanına çevrildiyini qafamdan keçirirəm. Sonra da deyirik, dünya yaşanmaz yerə çevrilir. Bir vaxtlar Nəsimi də: "Dünya duracaq yer deyil, durma, ey can, səfər eylə", – demirdimi? Günah özümüzdə olsa da, biz suçlunu kənarda axtarırıq.

Yağlıcanın təpəlikləri bu mənzərənin arxa fonu kimi görünsə də, başı buludlardan nəm çəkən uca zirvələri xatırladır. Yağlıcanın boz təpələrinin üstünə döşənmiş al-əlvan topa buludları qoyun-quzu sürüsünə bənzətməyim az da olsa kefimi ala buludda oynadır. Yaxşı ki, otaqda təkəm. Yoxsa mənim öz-özümə gülümsəməm, üzümün-gözümün haldan-hala düşməsi kənardan baxana ağlımın "o söz" olmasının mesajını verərdi.

Kiminsə zəngi vurmasıyla mənim düşüncələrimin qırıq-qırıq olması üst-üstə düşür. Bir saatlıq "pəncərə"mi pəncərədən baxmaqla keçirməyim beləcə tamamlanır.

**Afiq Muxtaroğlu**
*19 noyabr 2023-cü il*

# BEŞİKDƏN MƏZARA TƏRBİYƏ

XXI əsrin bəlkə də ən başlıca problemlərindən biri kamil insan modelinin necə yetişdirilməsi məsələsidir. İnsan yetişdirmək əmək istəyən bir işdir, ancaq insanın özünü yetişdirə bilməsi bu fani həyatda ən böyük qalibiyyətdir. İnsanın öz daxilində istəyi yoxdursa başqaları tərəfindən insanın yetişdirilməsi çətin məsələdir.

İmam Qəzali həzrətləri belə buyurur: "İnsan bal mumu kimidir. Tərbiyə ilə ona istənilən müsbət və mənfi şəkil verilə bilər". Buyurulduğu kimi, insanın mənfi və müsbət yönlü yetişə bilməsi onun tərbiyə və təhsilindən aslıdır. Tərbiyə geniş bir anlayışdır, insan beşikdən məzara qədər tərbiyəli yaşaya bilməli və tərbiyə almaqdan uzaq qalmamalıdır. Yəni kamil insan olmağın yolu daim tərbiyəli olmaqdan keçir. Məxluqat içərisində tərbiyə və təhsilə ən çox möhtac olan insandır.

İnsanoğlu maddi və mənəvi olmaq üzrə iki hissədən ibarətdir. İki hissədən ibarət olan bir varlıq birtərəfli yetişdirildiyi təqdirdə ortaya seyr edilməsi belə ürək ağrısına səbəb olan nəticələr çıxarır. İnsan hər iki hissədən ibarət olduğu üçün hər iki hissənin yetişdirilməsi yolunda tərbiyə və təhsil almalıdır. Günümüzdə təhsil və tərbiyə bir yönlü, yəni maddi istiqamətdə verildiyindən bu yolda məsafə qət edilməməkdədir. Birtərəfli verilmiş təhsil və ya tərbiyə bir qanadlı quşun uçmasını murad etmək kimidir. Bir qanadlı quşun uçmağı, məsafə qət etməsi görülməmişdir. Bu səbəbdəndir ki, mənəviyyatsız verilmiş təhsil və tərbiyə nöqsanlıdır.

Əsri-səadət dövrünə nəzər saldığımızda kamil insan örnəklərini görürük və onların necə kamillik zirvəsinə yüsəldiklərini də açıq aşkar müşahidə edirik. Kamillik zirvəsinə ucalanları seyr etmək yerinə istifadə etdikləri təhsil və tərbiyə metodlarına üz tutaraq bizlər də bu yollarla irəliləyərək zirvənin ucalığına qovuşa bilərik. Məsafə qət etmədən məkana çatmaq mümkünsüzdür. Mövlana həzrətləri buyurur: "Şam olmaq asan deyil. İşıq saçmaq üçün, əvvəlcə yanmaq gərəkdir".

İnsanın kamala çatması üçün könül aləminin yetkinləşməsi zəruridir. Könül yetkinliyi isə nəfsin xoşlandığı şeyləri tərk etmək, nəfsin xoşlanmadığı şeylərlə də nəfsin tərbiyə olunmasıdır.

Unutmamalıyıq ki, bu dünyaya heç bir qarşılıq ödəmədən gəldik. Əlimizdəki bütün nemətlər, Cənabı Haqqın lütfüdür. Bu lütf qarşısında insanın acizliyini idrak etməsi və "mən qazandım, mən bacardım" demək yerinə "Sənin lütfündür, ya Rəbbi!" hissiyyatı içində olması kamillik yolunda ilk addımını atması deməkdir. Əbul-Həsən Hərəqani həzrətləri buyurur: "Uca mərtəbələrə çatan Haqq dostları ixlasla etdikləri əməlləri ilə nəfslərini də təzkiyə etdikləri üçün yüksəlirlər".

"Necə ki namaz və oruc fərzdir, yerinə yetirilməsi məcburidir, eyni şəkildə könüldən qüruru, həsədi və təkəbbürü aradan qaldırmaq da zəruridir".

Həqiqətən bütün Allah dostlarını zirvəyə ucaldan sirr təvazökarlıq, heçlik və yoxluq halıdır. Bunun üçündür ki, arif şəxslər – "Sən çıxınca aradan, qalar səni Yaradan!" – buyurmuşlar. Nəfsin ən çətin tərk edə bildiyi xoşagəlməz xasiyyət isə qürur, təkəbbür və eqoizmdir. Əbu Haşim əs-Sufi buyurmuşdur: "Ürəkdə yer etmiş bir təkəbbürü qazımaq, dağları iynə ilə qazımaqdan daha çətindir". Lakin bu bacarılmadıqda mənən təkamül edə bilmək və dinin hədəflədiyi "kamil insan" halına gələ bilmək mümkün deyil. Necə ki bir hədisi-şərifdə buyurulmuşdur: "Ürəyində zərrə qədər qürur olan kimsə cənnətə girə bilməz" (Müslim, İman, 147).

Kamillik zirvəsinə çıxan yollar üzərində manеələr var, bu maneələr qaldırılmadıqca, aşılmadıqca zirvəni görmək imkansızdır. Bu maneələri yalnız səlim ağılla aşmaq mümkündür. Dövrün burulğanına qapılmadan, çirkli suların sel kimi axdığı bu həyatda ətəklərini toplayaraq get ki, saflıq və paklıq yol yoldaşın olsun, mənzilə çata biləsən.

**Lamiyə Hacıyeva**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

## "YENİ YOL" "TÜRKİYƏ TƏQAÜDLƏRİ" PROQRAMININ TƏQDİMATI ÜÇÜN GÜRCÜSTANDA SƏFƏRDƏ OLAN YURTDIŞI TÜRKLER VE AKRABA TOPLULUKLAR BAŞKANLIĞININ NÜMAYƏNDƏSİ ÜMİT DENİZ ÖNCEL İLƏ MÜSAHİBƏNİ TƏQDİM EDİR



**– "Türkiyə təqaüdləri" proqramı haqqında məlumat verərdiniz.**

– "Türkiyə təqaüdləri" Türkiyə Cümhuriyyətinin beynəlxalq tələbələrə istiqamətlənmiş Türkiyədə təqaüdlə ali təhsil proqramıdır. Proqramın prioritet məqsədi dünyadakı müvəffəqiyyətli tələbələrə fürsət verərək beynəlxalq standartlarla təqaüdlü təhsil almalarını təmin etməkdir. Bununla yanaşı, məqsəd Türkiyə ilə digər ölkələr arasındakı qarşılıqlı əməkdaşlığın inkişaf etdirməsi və akademiyadan sənətə, iqtisadiyyatdan ədəbiyyata, texnologiyadan arxitekturaya qədər bir çox sahədə regional və qlobal inkişafa töhfə verməkdir.

Türkiyənin ali təhsil üçün təqaüd proqramları 2012-ci ildən "Türkiye Bursları" adıyla tanınmış və Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB) koordinasiyası ilə işlərin icrasına başlanılmışdır.

"Türkiyə təqaüdləri" ölkələr arasındakı ictimai, mədəni, siyasi və iqtisadi bağları genişlətmək və inkişaf etdirmək baxışı ilə beynəlxalq tələbələrə Türkiyənin ən prestijli universitetlərində təhsil və təqaüd almaq imkanını təmin etməyi qarşısına məqsəd qoymuşdur.

**– Tələbələr niyə məhz "Türkiyə təqaüdlərinə" müraciət etməlidirlər?**

– "Türkiyə təqaüdləri" universitet və fakültəyə yerləşdirmə, aylıq təqaüd, təhsil haqqı, sağlamlıq sığortası, sığınacaq, türk dili kursu, təyyarə bileti, ödənişsiz akademik və mədəni proqram imkanlarıyla dünyanın ən əhatəli təqaüd proqramıdır. Proqram beynəlxalq tələbələrə Türkiyənin ən prestijli ali təhsil olacqlarında təhsil və təqaüd imkanı təmin etməkdədir.

**– İndiyənə kimi "Türkiyə təqaüdləri"nə ümumi olaraq nə qədər müraciət edən olub və onlardan nə qədəri qəbul olunub?**

– "Türkiyə təqaüdləri"nə 2012-ci ildə 42 minə qədər müraciət olunmuşdursa, bu rəqəm 2023-cü ildə 163 fərqli ölkədən 117.300 müraciətə çatmışdır və ildən-ilə müraciət edənlərin sayında sürətli artım müşahidə edilməkdədir. "Türkiyə təqaüdləri" çərçivəsində hər il təxminən 5 min beynəlxalq tələbəyə təqaüd verilməkdədir. Hazırda "Türkiyə təqaüdləri" proqramından faydalanaraq 15 min tələbə təhsilini davam etdirməkdədir.

**– Proqrama ən çox hansı ölkələrdən müraciət olunur?**

– "Türkiyə təqaüdləri"nə ən çox Cənub Asiya, Orta Asiya, Afrika və Orta Şərq ölkələrindən müraciət edilməkdədir.

**– Müraciət edənlər Türkiyənin daha çox hansı universitetlərini və ixtisasları seçirlər?**

– Gürcüstanlı tələbələr ən çox Ankara Universiteti, Qazi Universiteti, Hacettepe Universiteti, Bursa Uludağ Universiteti, Atatürk Universiteti, Anadolu Universiteti, İstanbul Universiteti, Marmara Universiteti, Sakarya Universiteti və Qaradəniz Texniki Universitetini seçirlər. Ən çox müraciət olunan ixtisaslar isə bunlardır: beynəlxalq əlaqələr, türk dili və ədəbiyyatı, idarəetmə, iqtisad, ilahiyyat, tibb, turizm administrasiyası, kompüter mühəndisliyi, inşaat mühəndisliyi, sosiologiya, tarix, jurnalistika.

**– İndiyə kimi Gürcüstandan nə qədər tələbə müraciət edib?**

– Bu günə qədər Gürcüstandan "Türkiyə təqaüdləri"nə 2770 tələbə müraciət edib, 806 gürcüstanlı tələbəyə təqaüd verilib. Gürcüstanlı tələbələr daha çox bəşəri və ictimai elmlərə üstünlük vermişlər.

**– Gürcüstandan tibb fakültəsinə müraciət etmək istəyən tələbələrin sayı çoxdur, lakin müraciət bölməsində bununla əlaqəli məlumat tapılmır. Bu haqda nə deyə bilərsiniz?**

– Sağlamlıq elmləri (tibb, stomatologiya və əczaçılıq) namizədləri üçün minimum akademik müvəffəqiyyət 90 %-dir. Gürcüstanlı tələbələrin də ən çox seçdiyi sahələrdən biri olan tibb fakültəsi ən çox müraciət olunandır. "Türkiyə təqaüdləri" daxilində ən çox rəqabətin yaşandığı sahələrdən biri olması səbəbindən də tibb fakültəsini müəyyən sayda ən müvəffəqiyyətli tələbələr qazanırlar. Buna görə də tibb fakültəsini seçən namizədlərin güclü rəqabətə hazır olmaları və ən müvəffəqiyyətli namizədlər arasına girmələri lazımdır.

**– Müraciət nə zaman başlayır və proqrama necə müraciət etmək olar?**

– Müraciətlər hər il 10 yanvar – 20 fevral tarixləri arasında "Türkiyə Bursları"nın veb-səhifəsində (https://www.turkiyeburslari.gov.tr) onlayn olaraq ödənişsiz həyata keçirilir.

**– Kimlər müraciət edə bilərlər?**

– Türkiyədə bakalavr, magistr, doktorantura dərəcələrində təhsil almaq istəyənlər, araşdırma ilə məşğul olmaq istəyənlər və aşağıda qeyd olunan şərtlərə sahib olan tələbələr dünyanın istənilən yerindən müraciət edə bilərlər.

***Müraciət üçün əsas meyarlar:***

*Minimum akademik müvəffəqiyyət meyarı:*

· Bakalavr namizədləri üçün minimum akademik müvəffəqiyyət – 70 %;

· Magistratura və doktorantura namizədləri üçün minimum akademik müvəffəqiyyət – 75 %;

· Sağlamlıq elmləri (tibb, stomatologiya və əczaçılıq) namizədləri üçün minimum akademik müvəffəqiyyət – 90 %.

*Yaş meyarı:*

· Bakalavr proqramları üçün – 21 yaşa qədər;

· Magistratura proqramları üçün – 30 yaşa qədər;

· Doktorantura proqramları üçün – 35 yaşa qədər;

· Araşdırma proqramı üçün – 45 yaşa qədər.

*Uyğunluq:*

· Bütün ölkələrin vətəndaşları;

· Məzunlar və ya mövcud təhsil-tədris ilinin sonunda məzun olacaq şəxslər;

· Araşdırmaçılar və alimlər.

**– Proqrama müraciət etmək üçün hansı sənədlər tələb olunur?**

– Müraciət sistemi üzərindən yaradılan fərdi hesaba şəxsi məlumatlar, təhsil haqqında məlumatlar və ünsiyyət məlumatları yüklənir.

**– "Türkiyə təqaüdləri" proqramı ilə təhsil alanları gələcəkdə nə gözləyir?**

– "Türkiyə təqaüdləri" proqramı Türkiyənin ən əhəmiyyətli universitetlərində beynəlxalq standartlarla təhsil almaq imkanını təqdim etməklə akademik və peşə inkişaflarına hər anlamda böyük töhfə verməkdədir. Dünya üzrə 150 mindən çox Türkiyə məzununun mövcudluğu və hər il bu məzunların sayının artması Türkiyədə təqaüdlə təhsil almanın üstünlüklərinin bir isbatıdır.

## YURTDIŞI TÜRKLER VE AKRABA TOPLULUKLAR BAŞKANLIĞININ NÜMAYƏNDƏLƏRİ GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATINDA OLUBLAR

"Türkiyə təqaüdləri" (Türkiye Bursları) proqramının təqdimatı üçün Gürcüstanda səfərdə olan Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB) nümayəndə heyəti – Ümit Deniz Öncel, Mustafa Yakupoğlu, Caner Süleyman və Derya Yalvaç bu gün Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) Rustavidəki ofisində olublar.

"Yeni Yol" xəbər verir ki, görüşdə GYMD-nin sədri Musa Hacıyev, təşkilatın mətbuat və nəşriyyat şöbəsinin sədri Hacı Bəkiroğlu, "Yeni Yol" qəzetinin redaktoru Azər Musaoğlu, təhsil üzrə koordinator Tural Qasımov, təşkilatın əməkdaşları Binəli İslamoğlu və Elsevər Əhmədov iştirak ediblər.

Görüş zamanı qonaqlar "Türkiyə təqaüdləri" proqramı haqqında ətraflı məlumat veriblər və Türkiyədə təqaüdlə təhsillə bağlı Gürcüstanlı məzunların nə qədər maraqlı olub-olmamaları müzakirə edilib.



# GÜRCÜSTANDA ŞAGİRDLƏRİN OXUMAQ VƏ RİYAZİYYAT ÜZRƏ NAİLİYYƏTİ AZALIB




Beynəlxalq Tələbə Qiymətləndirməsi Proqramı PISA (Programme for International Student Assessment) 2022-ci ilin ilkin hesabatına əsasən, Gürcüstanda 15 yaşlı şagirdlərin nəticələri yalnız dəqiq fənlərdə artıb və bu artım 1 bal təşkil edir. Araşdırmaya görə, orta nailiyyətin qısamüddətli təhlilinə əsasən, 2018-ci ilə nisbətən riyaziyyatda nailiyyət 8 bal, oxumaqda isə 6 bal azalıb.

"2022-ci il silsiləsində Gürcüstanın nəticələrində azalma qeydə alınıb. Ancaq 2018-ci ilin nailiyyətləri ilə müqayisədə bu azalma statistik baxımdan əhəmiyyət kəsb etmir", – hesabatda yazılıb.

Beynəlxalq Tələbə Qiymətləndirməsi Proqramı (PISA) 15 yaşlı şagirdlərin riyaziyyat, təbiət elmlərində bilik və bacarıqlarını qiymətləndirir. PISA qiymətləndirməsinin məqsədi 15 yaşlı şagirdlərin müasir ictimaiyyətdə tam iştirak etmək üçün xüsusilə oxu, riyaziyyat, təbiət elmləri sahəsində mütləq olan bilgini nə dərəcədə əldə etdiklərini müəyyən etməkdir. PISA-nın qiymətləndirməsi 15 yaşlı şagirdlər tərəfindən biliyin reproduksiya edilməsi bacarığı ilə yanaşı şagirdlərin öyrəndiklərini nə dərəcədə ekstrapolyasiya edə və onun həm məktəbdə, həm də kənarda tanış olmayan mühitlərdə tətbiq edə bildiklərini müəyyən edir.

PISA 2022-ci ilin göstəricilərinə görə, Gürcüstanda şagirdlərin 34 %-i riyaziyyatın 2-ci baza səviyyəsinə nail olublar. Bu da İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələrinin orta (İƏİT ölkələrinin orta göstəricisi – 69 %) göstəricisindən aşağıdır. Təxminən 33 % oxunun 2-ci və ya daha yüksək səviyyəsinə (İƏİT-də orta göstərici – 74 %), təxminən 35 % isə təbiət fənlərində (İƏİT-də orta göstərici – 76 %) nailiyyət əldə edib.

Hesabatın müəllifləri yazırlar ki, PISA 2022-də iştirak edən ölkələrin/iqtisadiyyatların əksəriyyətində şagirdlərin nailiyyəti statistik olaraq qiymətləndirmənin hər üç sahəsində də mühüm dərəcədə pisləşib. Orta hesabla İƏİT ölkələrində 2018-ci ildən 2022-ci ilə qədər riyaziyyat üzrə göstəricilər demək olar ki, 15 bal səviyyəsində pisləşib. Bu 2015-2018-ci illərdə stabil tendensiyadan sonra və 2018-ci ilə qədər nailiyyətlərin dəyişdirilməsinə yanaşmada əvəzsiz azalmadır. Burada silsilədən-silsiləyə fərq 4 baldan artıq olmurdu.

"Gürcüstan PISA 2022-də iştirak edən, stabillik göstərən və nəticələri 2018-ci illə müqayisədə hər üç sahədə statistik baxımdan mühüm dərəcədə dəyişməyən ölkələr sırasındadır. PISA 2022-də iştirak edən 24 ölkə/iqtisadiyyat, həmçinin Gürcüstan riyaziyyat sahəsində (390 bal) 2018-ci ilin göstəricisini saxlayıb. Oxu və təbiət elmlərində Gürcüstanın göstəricisi 374 və 384 baldır", – hesabatda yazılıb.

Çoxsəhifəli araşdırmaya əsasən nailiyyətlərin nəticələri məktəbin tipinə, yerinə, testin dilinə və şagirdin cinsiyyətinə görə verilib. Buna əsasən, aydın olur ki, özəl məktəb şagirdləri statistik baxımdan ictimai məktəb şagirdləri ilə müqayisədə riyaziyyatda (özəl – 445, ictimai – 384), eləcə də oxumaqda (özəl – 426, ictimai – 369) və təbiət fənlərində (özəl – 436, ictimai – 379) yüksək nəticələrə nail olurlar.

PISA 2022-də Gürcüstanda riyaziyyat üzrə məktəb məkanına görə Tbilisidə yaşayan şagirdlər (417 bal), sonra digər şəhərlərdə (383 bal) və kəndlərdə yaşayan şagirdlər (369 bal) yüksək nəticələrlə fərqləniblər. Ən aşağı nəticələr kənddə yaşayan şagirdlərdə (344 bal) qeydə alınıb. Oxu və təbiət fənlərində də oxşar nəticələrdir.

PISA müəyyən edib ki, iştirakçı ölkələr və iqtisadiyyatlarda qızlar oxumaqda oğlanlardan, oğlanlar isə riyaziyyatda qızlardan üstündürlər. Gürcüstan PISA 2009-2022-ci illərdə araşdırmada iştirak edən, stereotiplərin qızların nailiyyətlərinə az təsir göstərdiyi ölkələr sırasına daxildir. Gürcüstanda qızların hər üç sahədə oğlanlardan daha yüksək qiymətləndirməsi var.

PISA 2022-nin nəticələrinə əsasən, Gürcüstanda oğlan və qızlar orta hesabla oxşar səviyyədə riyaziyyat tapşırıqlarını yerinə yetiriblər. Oxumaqda qızlar oğlanlardan 35 bal (qız – 392 bal, oğlan – 357 bal) üstün olublar. Dəqiq fənlər üzrə qızlar oğlanlardan 14 bal çox toplayıblar (qızlar – 391 bal, oğlanlar – 377 bal).

Gürcüstan PISA 2022-də iştirak edən qızların göstəriciləri oğlanlardan üstün olan ölkələrin siyahısına daxil edilib. Bruney, Şimali Makedoniya, Filippin, Mərakeş, Albaniya, Fələstin, Monqolustan, Azərbaycan (Bakı), Dominikan Respublikası, Finlandiya və digər 6 ölkənin göstəriciləri Gürcüstanla oxşardır.

PISA sosial-iqtisadi indeksinə əsasən nəticələrə gəlincə, araşdırmada bildirilir ki, Gürcüstandan olan şagirdlər 2022-ci il dövrünə qatılan ən ehtiyaclı şagirdlər arasındadır. Türkiyə və Vyetnamda hər üçüncü şagirdin sosial-iqtisadi vəziyyəti Gürcüstandakı kimidir.

"2015-2022-ci illərdə Gürcüstanda sosial-iqtisadi vəziyyətə əsasən riyaziyyat nəticələrində fərq azalıb, İƏİT ölkələrində orta fərq sabit qalıb. Onu da qeyd etmək lazımdır ki, Gürcüstanda sosial-iqtisadi baxımdan imkanlı şagirdlər (sosial-iqtisadi vəziyyətə görə yuxarı 25 %) riyaziyyat fənni üzrə imkansız şagirdləri (aşağı 25 %) 65 bal üstələyiblər. Bu göstərici İƏİT ölkələrində iki oxşar qrup arasındakı orta fərqdən (93 bal) azdır. Gürcüstanın iqtisadi cəhətdən ehtiyacı olan 15 yaşlı şagirdlərinin təxminən 14 %-i riyaziyyatdan ən yüksək bal toplayıb və yüksək nəticə göstərən şagirdlərin ilk 25 %-i arasına düşüblər. Bu şagirdləri akademik cəhətdən sabit hesab etmək olar, çünki onlar sosial-iqtisadi vəziyyətdən asılı olmayaraq Gürcüstanın digər şagirdləri ilə müqayisədə ən yüksək nəticə əldə ediblər. Müqayisə üçün, İƏİT ölkələrində iqtisadi cəhətdən zəif olan şagirdlərin yalnız 10 %-i riyaziyyatdan ən yüksək qiymətlər əldə edib və müvəffəqiyyət qazananların ilk 25 %-i sırasına daxil ola biliblər", – PISA 2022 hesabatında yazılıb.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) himayəsi altında Beynəlxalq Tələbə Qiymətləndirməsi Proqramı (PISA) 2000-ci ildən (üç ildən bir) həyata keçirilir. Qiymətləndirmə əməkdaşlıq əsasında hazırlanır, hər bir iştirakçı ölkə/iqtisadiyyat ilə razılaşdırılır və milli mərkəzlər tərəfindən aparılır. Gürcüstanda qiymətləndirməni Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz həyata keçirir. Gürcüstan PISA-ya 2009-cu ildə qoşulub, qiymətləndirmələr 2015, 2018 və 2022-ci illərdə aparılıb.

PISA 2022-də 81 ölkədən və iqtisadiyyatdan təxminən 690000 şagird iştirak edib ki, bu da təxminən 29 milyon 15 yaşlı gənci əhatə edir. Sınaq imtahanında Gürcüstandan 267 məktəbdən 6583 şagird iştirak edib. 267 direktor məktəb direktoru anketini, 3202 pedaqoq müəllim anketini, 6252 valideyn/qəyyum isə valideyn anketini doldurub. PISA 2022 imtahanı zamanı Gürcüstanda 15 yaşlı şagirdlərin 76 %-i 10-cu sinif şagirdi olub.

PISA 2022-yə görə Sinqapur məktəb təhsili istiqamətində liderlik edir.

# QİYMƏTLƏNDİRMƏ VƏ İMTAHANLAR ÜZRƏ MİLLİ MƏRKƏZİN RƏHBƏRİ VƏZİFƏSİNDƏN İSTEFA EDİR




Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin rəhbəri Sopio Qorqodze vəzifəsindən istefa edəcəyi haqqında mərkəzin rəsmi səhifəsində məlumat yayımlayıb. O, bu barədə bir neçə ay əvvəl qərar qəbul etdiyini bildirib.

S.Qorqodze fəaliyyətinə harada davam edəcəyini qeyd etməyib. Ancaq bildirib ki, təhsil sahəsində işləyəcək. Onun yerinə kimin təyin olunacağı da hələ ki, məlum deyil.

"Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzdə fəaliyyətimdən artıq 5 il ötür. Bu qeyri-adi təcrübədir və həyatımda çox maraqlı dövrdür. İndiki mərhələdə qərar qəbul etdim ki, 1 yanvardan şəxsi ərizəm əsasında Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin dirkektoru vəzifəsini tərk edim.

Bildirmək istəyirəm ki, bu qərarı bir neçə ay əvvəl qəbul etmişdim və bunun mərkəzin fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur.

Mərkəzin hər bir əməkdaşına məhsuldar və uğurlu fəaliyyət üçün minnətdarlığımı bildirmək istəyirəm. Nazir və nazir müavinlərinə mənim fəaliyyətimdə maksimum dəstək göstərdiklərinə görə minnətdaram.

Həmişə Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin böyük azarkeşi olacam. Kiçik fasilədən sonra yenidən təhsil sahəsində fəaliyyətimi davam etdirəcəm", – deyə Sopio Qorqadze bildirib.

Qeyd edək ki, qeyri-rəsmi məlumata əsasən, Sopio Qorqadze vəzifəsindən azad edilib. Səbəb isə Beynəlxalq Tələbə Qiymətləndirməsi Proqramı – PISA 2022-nin nəticələrinin saxtalaşdırılmasından imtina etməsidir.

*Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə Əliyeva**

# YENİ (YENƏ) İL (İY) GƏLİR



Dekabr ayının gəlişi bir çoxumuz üçün qışın deyil, Yeni ilin gəlişi deməkdir. Soyuğu və qışı sevməyən insanların, əminəm ki, tək təsəllisi Yeni ildir. Axı düz bir il bu günü gözləyirlər.

Yeni ili dünyanın bir çox ölkəsi özünə xas adət-ənənə ilə qeyd edirlər. Məsələn, ingilislər gecə saat 00:00-ı göstərdikdə evlərinin dal qapısını açıb köhnə ili yola salır, sonra ön qapını açaraq Yeni ili qarşılayırlar. Hansı ölkə olduğu yadımda deyil, amma köhnə əşyaların pəncərədən bayıra atılması kimi bizlərə qəribə gələn bir ənənə də mövcuddur. Bizlər isə evə yeni süpürgə və stol süfrəsi alırıq. Yeni süfrənin evə bolluq-bərəkət gətirəcəyi düşünülür. Nə yalan deyim, süpürgənin nə mənaya gəldiyini dəqiq bilmirəm. Yəqin ki, səliqə-sahman, təmizlik olar. Bizim əsl ənənəmiz, şan-şöhrətimiz isə yeməklərimizdir.

Bəli, biz Yeni ilə qazan-qazan yeməklərimizlə giririk. Üç bacı və yarpaq dolmasından tutmuş şah pulovuna qədər, cürbəcür salatdan tutmuş şirniyyatlara qədər, mövsümü olmayan meyvə-tərəvəzdən tutmuş müxtəlif bahalı içkilərə qədər otağın bu başından o başına qədər bir süfrə açaraq giririk Yeni ilə. Bəs bütün bu hazırlıqlar necə başlayır? Fikrimcə, biz azərbaycanlıların ən çox pul xərclədiyi ay dekabrdır. Səbəbi də hamıya açıq aydın olan ayın 15-i çatan kimi başlayan bayram alış-verişidir. Yuxarıda sadaladığım təamların hazırlanması üçün dalında çoxlu sıfır olan bir məbləğ xərcləyərək bayram bazarlığı etmək lazımdır. Bazarlıq məsələsi bitdikdən sonra bişirmə mərhələsinə keçid olunur.

Deməli, üç gün əvvəldən başlanılır yemək hazırlanmağa. Bəlkə də soyuducunun buzluğu həyatının ən izdihamlı günlərini elə bu üç gündə yaşayır. Gec xarab olan yeməklər əvvəlcədən hazırlanıb buzluğa qoyulur. Tez xarab ola bilən yeməklər isə ən gec hazırlananlar olur və bayram günü bişirilir. Sonra axşam yeni alınmış süfrə stolun üstünə salınır, hazırlanan min bir təam düzülür və sonda o möhtəşəm toy süfrəsinə oxşar masanın şəkli çəkilərək sosial şəbəkələrdə "bayramınız mübarək olsun" başlığı altında paylaşılır. Sonra masaya əyləşərək başlayırlar yeməyə. Bir yandan yeyib-içirlər, bir yandan qohum-qardaşa zəng edib bayramlarını təbrik edirlər. Vatsap çıxaranın atasına rəhmət. Onun sayəsində görüntülü zəng edib süfrəni bir də belə reklam edirlər. Bu arada qıtlıqdan çıxmış kimi yeməyə də davam edirlər. Nə diabet sayan var, nə də təzyiq. Türklər demiş, atın ölümü arpadan olsun deyib yeyirlər. Onsuz da Yeni il bir günlükdür, ona görə də nə ki var yeməlidirlər. Bəlkə Yeni il bir günlükdür, amma bişirilən yeməklər bir həftə, on gün yeyilir.

Biologiya kitablarındakı filan qidanı bu qədər müddət keçəndən sonra yemək olmaz qeydini, verilən cədvəli sayan da olmur. Elə içi həmin dərsi tədris edən müəllim qarışıq. Bu, bütün azərbaycanlılara xas xüsusiyyətdir. Yeməyi zibilə atası ki deyilik. O qədər pul xərclənir. Pul xərcləmək demişkən, deyəsən bu bayram bir tək alverçilərə və balıq satanlara fayda verir. O alverçilərə ki, şəhərin mərkəzindəki yolu zəbt edirlər, maşınların hərəkətinə mane olurlar. Bir il əvvəl salınmış parkı bazara çevirənlərdən gedir söhbət. Balıq satanlar da elə bu alverçilərin yanında durub öz qazanclı ticarətləri ilə məşğul olan, ətrafı balıq iyində boğub, camaatın ürəyini bulandıranlardır. Bayramqabağı hamısının üzündə güllər açır. Böyük təmtəraqla bazarı daha da genişləndirirlər. Bayramın ən qazanclıları onlar olurlar. Amma bayramdan sonra bir müddət alver dayanır. Bax onda həmin parkın həqiqi görüntüsü üzə çıxır. Təəssüf ki, bu dəfə də üfunət və dolub daşan zibil qabları çıxır efirə. Gözümüz parkın çirkin mənzərəsini görməsə də, burnumuza dözülməz qoxular gəlir. Bilmirəm nədir bizim bu çəkdiyimiz...

Bayram şadlıq deməkdir, əyləncə deməkdir, amma biz yeməyə bir ton pul xərcləyirik, ərzaq dükanlarını boşaldırıq, alverçiləri varlandırırıq. Guya Yeni ilə yaxşı girməyə çalışırıq ki, ilimiz xoş keçsin. Məncə, bir az xərclədiyimiz məbləğin arxasındakı sıfırları azaltsaq, girdiyimiz ildə maddi cəhətdən daha yaxşı dolanarıq. Məlum olduğu kimi, Gürcüstan artıq Avropa Birliyinə doğru addımlayır. Gün o gün olsun, biz də Yeni ili avropasayağı qarşılayaq. Şəxsən mənim üçün o balıq iyindən və dolub daşan zibil qablarını görməkdənsə yolda gedərkən başıma pəncərədən atılan köhnə əşyanın düşməsi daha xoş olar.

Hər nə isə... Bütün bunlara baxmayaraq qarşıdan gələn Yeni il münasibətilə sizləri indidən təbrik edir, ayağınızı yorğanınıza görə uzatmağı arzu edirəm!

**Çiyalə Osmanova**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# ƏŞYALARIN VERDİYİ MÜVƏQQƏTİ XOŞBƏXTLİK



Toylarımızın, xeyir işlərimizin necə təmtəraqlı keçirildiyini izah etməyə gərək yoxdur. Hər birimiz qohumda, qonşuda bir-birinə bənzər toyların şahidi oluruq. Dövrümüzdə toya çəkilən xərclər həddindən artıq çoxdur. Toy, nişan, xına mərasimlərinə çəkilən xərcləri dilucu qınasalar da buna əhəmiyyət vermirlər, onsuz da ömürdə bir dəfə olan şeydir, ən yaxşısı olmalıdır deyirlər. Qız verildi "adımıza layiq süfrə açmalıyıq", borcla da olsa o süfrə açılır. Oğlan evi dolu xonçalarla gəlməlidir. Nişan mərasiminin xərcləri heç də toy xərclərindən fərqlənmir.

Xərci azaltmaq yerinə yeni adət-ənənələr "kəşf" edən qızlarımız nişandan əvvəl ən son model ayfonun yolunu, nişandan sonra isə evlilik təklifini gözləyirlər (filmlərdəki kimi). Daha sonra isə bahalı üzük, qəşəng don, 101 ədəd qızılgül və s. Bunların da hamısı kadra alınmalıdır, əlbəttə, bunun üçün də şəhərin ən yaxşı fotoqrafını tapmaq lazımdır.

Toya qədər isə Yeni il, Novruz bayramı, Ramazan bayramı, Qurban bayramı, ad günü, Sevgililər Günü, 8 Mart, 23 Fevral – bunların hamısı üçün qız evi yaxşı süfrə açmalı, oğlan evi isə əli dolu qız evinə getməlidir. Birdən söz-söhbət düşər: "qızımızı aldı, bir quru konfetlə qapımızı açmır", "o boyda aldıq apardıq, süfrəyə qoyduqları nə idi onların"... İraq olsun, qohum-əqraba sözə qoyub orda-burda danışar.

Beləcə bir neçə bayramı yola salırlar. Sıra gəlir toy hazırlıqlarına. Oğlan evi gəlinə bahalı zinət əşyaları almalıdır. Qız evi də düşür cehiz dərdinə. Necə deyərlər, qız qundaqda, cehiz sandıqda. Qızın doğulduğu gündən valideynlər cehizi haqqında düşünürlər...

Bu gün bir ailənin qurulması üçün çəkilən xərc oğlan evinin xərcindən heç də az başa gəlmir. Oğlan evi toyu qonaqların yazdırdıqları nəmər hesabına qismən qarşılasa da, qız evi borc-xərc pulu əşyaya çevirib cehiz verir. Çünki hələ də qıza bahalı cehiz vermək ənənə, dəb halındadır. Ailə dəridən-qabıqdan çıxır ki, qıza verilən cehiz oğlan evinə göndərildikdən sonra tənqid hədəfinə çevrilməsin. Bir sözlə, qayınana "maşınmaşın cehizi var gəlinimin, ay gəlinimin" deməlidir. Təki qohum-qonşu "bu qədər cehiz verdi" desin, "bir televizor belə vermədi" deməsin.

Bu yaxınlarda avtobusda təsadüfən iki qadının söhbətinə şahid oldum. Üç il öncə bu prinsipi əsas tutaraq bu qadın da qızına yaxşı cehiz vermək üçün kredit götürüb: "Qızıma bir maşın cehiz verdim –çay qaşığından tutmuş iri əşyalara kimi. Qızım ayağını dirədi, hər istədiyini aldırdı, indi də borcun içində üzürük. Hələ bu azmış kimi qayınanası hər gün qızıma verdiyim cehizə lağ da edir, qızın ürəyini qırır". Bu qadın sözünü bitirmişdi ki, o biri başladı: "Mən də qızımı təzəlikdə köçürdüm. Qızımı oxutdurub əlinə də diplom verməmişəm. Sabah gedib ər evində işləyib çörək qazanacaq, əlbəttə, öz ailəsi üçün. Cehizə gəlincə, elə mən onun diplomuna bir cehizin pulunu xərcləmişəm. Nəyi yox idisə yüngülvari cehiz də verdim".

Qadınların söhbətindən sonra biraz düşündüm, ətrafımda olanlarla müqayisə etdim, doğrudan da bu hadisələr hələ də yaşanır. Cehiz imkan daxilində verilməlidir, kimsə verdiyi cehizlə öyünməməlidir. Kimin nəyə imkanı çatırsa onu da versin, valideyni cehizə görə çətinə salmaq düzgün deyil. Banklara kredit üçün müraciət edənləri dindirəndə ya yas mərasimi üçün, ya da toy, cehiz üçün pul götürdüklərini deyirlər. Nə məcburdur axı, caamat dilə salıb danışsın deyə sən illərlə ödəyəcəyin bir borcun altına girirsən...

Statistikaya görə, boşanmaların sayı artır. Bu boşanmaların çoxu dolanma, tələbatların ödənilməməsi səbəbindən artan davalar və mübahisələrə görə olduğunu isə sadəcə ailə içindəkilər bilir. Hər şeyin ən yaxşısı, ən gözəli olsun deyə-deyə sadəcə bir günlük xoşbəxtliklərini bir ömürlük xoşbəxtliklərinə qurban verirlər.

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# GƏLƏCƏYİN HARAYI VƏ YA DİVARLARIMIZDAKI BOŞLUQLAR



O da hamı kimi doğuldu, hamı kimi məktəbə getdi, hamı kimi sıralansa da hamı kimi yaşamaq istəmədi, amma bu "hamı kimi"ni bacarmaq nə qədər çətinmiş sən demə, palaza bürünüb elnən sürünməyi də bacarmaq lazımmış...

Bir gəncin sosial şəbəkələrdə rastlaşdığım reklam çarxı məni çox məyus etdi və bu yazını yazmağa vadar oldum. Qorxdum ki, bir rəssamın etirazından başlayan küskünlüyü gənclərə yoluxa...

Rasim Həsənov – yəqin sənətsevərlərə tanışdır bu ad. Bu ilin sentyabrında Tbilisidəki Milli Qalereyada sərgisi ilə əks-səda yaradan gənc rəssam, özünəməxsusluğu ilə fərlqənən, fərqləndiyi qədər sənətinin vurğunu, sənət məsumu olan, uman yerdən küsən, çıxıb gedəcəm buralardan məni mən kimi anlayanlara tərəf deyən rəssam...

O, Qarayazıda sıradan bir ailədə dünyaya gəldi. Qardabani 3 saylı məktəbdə şagird oldu. Bir gün həyatın burulğanı onu Belarusun Bobruysk şəhərinə apardı. Gənc yaşların ilk addımlarını orada atdı. Uşaqlıqdan hamının cızma-qara kimi baxdığı onun qaralama vərəqləri Rasimin gələcək dünyasının rəngləri idi – hələ kimsəyə anlada bilmədiyi dünyasının.

Belarusda küçə divarlarında çəkdiyi rəsmlər – küçə sənəti (street art) bəzilərinin diqqətini çəksə də, o, hələ də içinin səsini tam anlada bilmirdi. Rasim fərqliydi – ətrafının onu dərk etmədiyi qədər fərqli. Elə o küçə sənətçiləri üçün doğrudan da rəssamlıq keçəri bir həvəs idisə, Rasim üçün keçmədi, artıq küçə rəssamlığı, kətan rəsmi ona azlıq edirdi, bir yenilik istəyirdi – hamıdan fərqli. Düşüncəsini fərqli sənətiylə üzərə çıxarmaq istəyirdi, amma hələ istədiyi yeniliyi tapa bilmirdi.

Bir gün bir yuxu gördü, çox qəribəydi, bir otaq və otaqda müxtəlif rəsmlər, rəngarəng tablolar vardı. Hər rəsm bir sənət idi, hərəsində bir dünya vardı. Hər əsərin öz mənası sanki kulminasiya nöqtəsi kimi ağ gipsdən bir heykəl kimi önə çıxırdı, elə bil demək istəyirdi ki, bax, bunu deyirdim. Rasim bütün rəsmlərə acgözlüklə baxırdı "bu nədir, bütün bunları mən də düşünmüşdüm" deyə təəssüflənirdi, çəkmək istədiyi bütün rəsmlər burada idi. Sanki ideya oğrusu idi o rəssam, bircə fərq vardı – heykəllər. Yuxudan ayıldı, əvvəl sevindi ki, onun ideya oğrusu yox imiş, tam ayılanda anladı ki, tapdı – etmək istədiyini tapdı. Deməli, yuxu köməyinə çatdı. Nyutonun alması köməyə çatan kimi və Rasim qərar verdi – rəngkarlıq və heykəltaraşlığın sintezi. Bu, onun özünəməxsus bir təqdimatı olacaqdı. Öz dünyasından rəssamlıqla çıxış və heykəltaraşlıqla nöqtə!

Bəli, öz yolunu tapdı. Küçədən kiçik otağındakı künc emalatxanasına dönüş etdi. Beləcə bir əsər üzərində bəzən aylarla işlədi və nəticədən özü çox razı idi, istədiyini deyə bilirdi. Əlbəttə, tarix boyu yeniliklər də çətin qəbul olunub, insanların qəlbi ilə əməlinin tərs mütənasibliyi də. Artıq qəriblik də onu sıxırdı. Vətən sevgisi, doğmaların cazibəsi onu yurduna çəkirdi.

Bir gün bir dostuna hədiyyə etdiyi rəsm-heykəli o öz ofisində divardan asıbmış. Dostunun deməyinə görə, onsuz da bütün gələnlərin diqqətini cəlb edən tabloya bir gün bir belarus ictimai xadim yaxınlaşıb müəlliflə maraqlanıb və xahiş edib ki, rəssama onun sərgisini açmaq istədiyini çatdıralar. Xəbərdən 23 yaşlı Rasim həm qürurlandı, həm də inadkarlıq etdi. Qürurlandı ona görə ki, deməli, istədiyi pilləyə doğru istədiyi kimi, öz fərqliliyi ilə yol alıb, hətta tanınmış bir incəsənət xadimi ona öz hesabına sərgi belə açmaq istədi. İnadkarlıq etdi ona görə ki, bunu yalnız Vətəndən kənarda olan insanlar hiss edə bilər. Nə qədər günün xoş olsa da səni uşaqlığının keçdiyi və Vətən dediyin o yer özünə çəkir. Qəriblikdə etdiklərinə bir qısqanclıq və edə bilmədiklərinə "Vətəndə edə bilərdim" sindromu olur, əlbəttə ki, vətənsevərlərdə. Rasim də düşünürdü ki, məni heç tanımayan bir belarus bu diqqəti göstərirsə, gör öz Vətənimdə mən necə diqqət mərkəzində olacam.

Rasim Qarayazıda öz uşaqlığını qoyub getmişdi, onun Vətən xatirələri, yaddaşı da uşaqlıqdakı kimi saf və arzu dolu idi... Odur ki, ona uzanan yad əllərdən tutmadan Vətənə döndü. Çox çətinliklərlə əsərlərini Qardabaniyə gətirə bildi. Artıq yerləşmişdi. Ata yurdu ona qucaq açdı, dost-tanış sevinclə qarşıladı. Özünə yaxşı dostlar tapdı. Artıq Gürcüstanda azərbaycanlılar onun qoyub getdiyi zamandan fərqli idilər. İnteqrasiya addımları da daha geniş idi. Gənclər Tbilisidə ali təhsil alır, işlə təmin olunur... Rasim özünə mənən yaxın olan gənclərlə görüşdü, onlar qəzet nəşr edirdilər, teatr yaradırdılar və s.

Həə... bunlar işin görünən tərəfi imiş. Sən demə daxilində başqa çətinliklər varmış. Rasimin arzuları elə arzu olaraq qalacaqmış. Qəzet üçün də, teatr üçün də, məktəb, dərnəklər üçün də özünü fəda etməliymişsən. Heç kim səni duz-çörəklə qarşılayıb fədakarlıq etməyəcəkmiş.

Artıq addımını atmışdı və addımlamalıydı. Bəlkə də addıma çatmaq üçün sürünmək lazım idi ki, bunu da Rasim qəbul etmirdi. Öz hücrəsində yaradıcılığına davam etdi, ailə qurdu, axı ailəni saxlamaq üçün sənətdən gəlir gəlmirdi. Dostların köməyi ilə ilk sərgisini Tbilisidəki Parlament Kitabxanasında açdı, əlbəttə, kimsənin tanımadığı, bəlkə hələ təcrübəsi də az, 25 yaşlı rəssam o qədər də işıqlandırılmadı. Sonra Tbilisidə Ədəbiyyat Muzeyində qarışıq sərgidə iştirak etdi... Yox, heç nə onun düşündüyü kimi deyildi. Bir tərəfdən maddi asılılıq, digər tərəfdən diqqətsizlik Rasimi çox sıxırdı. Üçüncü sərgisini Rustavi Tarix Muzeyində təşkil etdilər. Sərgidə görkəmindən ziyalılıq yağan bir gürcü yaxınlaşıb dedi: "Rəsmlərin məni valeh etdi, mənim üçün sintezin yenilik idi. İncimə, çıx get buralardan, Gürcüstan sənə darlıq edəcək". Düzü, tamaşaçı çoxluğunda sözünü deyib gözdən itən ziyalının məsləhəti beyninin yaddaş kartına yazıldı...

Həyat yoldaşı Jalə xanım Tbilisi Milli Qalereyasına müraciət edərək belə bir rəssamın varlığını xatırlatdı. İşlərə baxış keçirildikdən sonra bir həftə sonra senzura ilə, bəzi qadağalarla sərgiyə icazə verildi. İçindəki təlatümləri hayqıran rəssam sərginin adını "Üsyan" qoydu. Çox maraqlı, özünəməxsus video reklam hazırladı: bir boş düzənlikdə o öz əsərinə od vurur, əsər yanır. Əsərdən önə uzanmış gipsdən olan qollar, əllər qalır, yəni ruhumu yandırdın, amma əlim sənə açıq qaldı, əlim sinəmdə ya mənən yandırıldım, dilənçi qaldım, ya yenidən çəkəcəm... Mücərrəd-abstrakt mənalar o qədər çox idi ki, yalnız digər əsərləri görməklə rəssamın nə demək istədiyini bilmək olacaqdı...

İzləyicilər maraqla sərgini gözləyirdi. Gedə bilməyənlər isə mediada, sosial şəbəkələrdəki paylaşımları gözləyirdi. Nəhayət sərgi baş tutdu. Gürcüstanın gürcüdilli televiziya kanallarından üçünə xəbər edilmişdir, o cümlədən Azərbaycan mediası və yerli azərbaycandilli media da sərgidə idi. Sərgi maraqla qarşılandı və çox böyük əks-səda yaratdı, amma yalnız yerli azərbaycandilli mediada və Azərbaycan televiziyalarında.



Rasimin sərgisinə hətta qalereya rəhbərliyi belə çox biganəlik edib, kurator vəzifəsindən belə son anda imtina etdilər. Yaxşı ki, həyat yoldaşı jurnalist idi, özü kurator, media yönəldicisi kimi çox işləri həll edirdi. Üç gün sonra reportajın efirdə getməməsinin səbəbini öyrənmək üçün zəng edəndə cavab belə vermirlər...

Gürcüstanın rəssamlıq tarixində yeganə olan bu müasir rəngkarlıq və heykəltaraşlıq nümunələrinə bu cür biganəlik Rasimi çox qırdı. Bu qırıqlıq "Üsyan" adlandırdığı sərgisinin davamı kimi "çıxım gedim buralardan" devizinə çevrildi.

Çox təəssüf ki, belə bir istedad çoxluqların içində onlara qarışaraq sıradan biri kimi bizim olmayacaq!

Tolerant olmaq istədiyimiz ölkəmizdə inteqrasiya edərək Gürcüstan adına bir mərtəbə ucalmaqla özümüzün olaq, yoxsa istedadları hürkütməklə belə gənclərimizi Avropa çoxluğunda, firavan yaşam tərzində əridəkmi?!

Əminəm, Mədəniyyət Nazirliyimiz SOS səsimizi eşidəcək. Milliyətindən asılı olmayaraq hamımızın sənədində Gürcüstan vətəndaşı yazılır axı. Gəncləri Gürcüstan vətəndaşı kimi bərabər sıralayaq ki, demokratik Gürcüstan respublikamızın əzəmətli divarlarını ucaldan gənclər arasında fərq qoymamaqla dövlətçiliyimizi qoruyaq!

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

Koroğlu möhkəm qorumaq üçün igidin mənəviyyatını və qaydaları yaxşı dərk edir. Bizim qəhrəman da öz həyat yolunu əvvəlcə bizə nəql edir. O, binadan dağlar qoyununda bəsləndi – tülək tərlanlar səslədiyi dağlar qoynunda. İgid yaşına dolanda, yağı çıxdı savaşına, dəlilər gəldi başına. Hər yana səfər eylədi, şahları gətirdi cana. Qıratı gəldi cövlana. Yollar kəsdi, karvan vurdu. Çox bəzirgan soydu. Düşmənlərə qan uddurdu. Əsir çəkdi Çənlibelə (Bax: "Koroğlu", səh. 196-197; "ქოროღლი", səh. 226).

Bu gəraylı Koroğlunun həyat və mübarizə yolunu qısaca bizə nəql edir. Burada Koroğlu igidliyin nə olduğunu, onu necə hesab etdiyini bizə danışır. Onun anladığına görə, qoç quzudan quzu törər, qoç olar. Qoç igiddən qoçaq olar, mərd igidlər dava günü şad olar. Müxənnətlər naçaq olar. Canı qurban mərd igidin özünə. Mərdi ölsə, əlin vurmaz dizinə. Fürsət düşsə düşməninin gözünə burma-burma bıçaq olar. Mərd igidlər bir-birinə daldadı, çuğullar ölməyib, sağı-soldadı, mərd meydandan qaçmaz, qaçsa aldadı, qovğa günü haçaq olar (Bax: "Koroğlu", səh. 196; "ქოროღლი", səh. 223). Başqa yerdə Koroğlu yenə bizə moizə edir: "Qul deyərlər, qulun boynun burarlar, qullar qabağında gedən tirəm mən. Hesablıya dağ da olsam əyilləm. Bədhesaba yaman kinligirəm mən. Qırram qoşunu xaki-pay kimi, bir qılınc vuraram Əmiray kimi, mən coşmuşam boz-bulanıq çay kimi, inanma ki, neçə ilə sönəm mən. Koroğlu da yatıb-yatıb oyanmış, Misri qılınc qızıl qana boyanmış, mən poladam dəmirçidə dayanmış, Şüşə deyləm əl dəyəndə sınam mən" (Bax: "Koroğlu", səh. 130-131; "ქოროღლი", səh. 167).

Müəyyən olunduğu kimi, Koroğlu igidliyin inancını anladığı kimi bütün layiqli insanların önündə baş əyir və haqsızlıqlar göstərən bütün nakişilərin üzərinə ildırım kimi şığıyır. Müvafiq olaraq Koroğlunun müraciəti və özünü təqdim etməyi dəyişir. İstəklisinə özünü bəyəndirəndə başqa cürdür, adlı-sanlı düşməni döyüşə çağıranda başqa cürdür, paşaları və xanları hədələyəndə başqa cürdür. O, Nigar xanıma qarşı xüsusi mehribanlıq göstərir və özünü gözləyir. Belə ki, üzünü Nigar xanıma tutub deyir:

**Açılıbdı sinən gülü,**
**Dönübdü xəndana, Nigar!**
**Şirnən tülkünün nə işi,**
**Girəydi meydana, Nigar!**

**Lənət namərdin börkünə,**
**Düşər özü öz ərkinə,**
**Çəkərəm Qırat tərkinə,**
**Aparram bir yana, Nigar!**

**Müxənnətdən dad elədim,**
**Dost-aşnanı yad elədim,**
**Neçə qul azad elədim,**
**Qəst etmədim cana, Nigar!**

**Gəlmişəm bu yerdə qalam,**
**Düşmənlərə qılınc çalam,**
**Səni Çənlibelə salam,**
**Bil, mərdi-mərdana, Nigar!**

**Koroğluyam, bel bükəndə,**
**Misri qılıncı çəkəndə,**
**Başları yerə tökəndə**
**Susayaram qana, Nigar!** (Bax: "Koroğlu", səh. 59; "ქოროღლი", səh. 84). (Burada müəllif tərcüməçinin son bəndi ritmə görə dəyişdiyini qeyd edir – M.M.).

Koroğlunun özünü qərib aşıq kimi aparanda dilinin rəngkarlığı bir növ diqqətə layiqdir. Onun şeirinin obrazlılığı, nitqi tamamilə aşıq poetik rəngkarlığına uyğun gəlir: Salam verdim, salam almaz, görüm kəssin salam səni. Axcasız, pulsuz aşığam, pulum yoxdur alam səni. Güllü bağlarda gəzərsən, cahillər bağrın əzərsən, yuxa kağıza bənzərsən, tutmaz qələm, yazam səni. Xəzinəm yox, ağzın açam, dövlətim yox, tökəm saçam, əlac budu alam, qaçam, Çənlibelə salam səni. Hansı dağların qarısan? Hansı bağların barısan? Nigar, Koroğlu yarısan, bilsin külli-aləm səni (Bax: "Koroğlu", səh. 53; "ქოროღლი", səh. 77). Və yenə: Uca-uca dağlar başı çənli də olur, çənsiz də olur. Cəhd elə bir işdə tapıl, sənli də olur, sənsiz də olur. Ağ üzdə busə tək gərək, ərənlər İsatək gərək, gözəllər Nisatək gərək, telli də olur, telsiz də olur. Koroğlunun atı gərək, dəmir, polad qatı gərək, bir igidin zatı gərək, pullu da olur, pulsuz da olur (Bax: "Koroğlu", səh. 54; "ქოროღლი", səh. 78). Koroğlunun şeirinin sonunda Koroğlu sayağı mətinlik və təbil səslənir. Və Nigara belə müraciət edir: Tülək tərlan qorxmaz sardan, könül ayrılmaz Nigardan, səni zor ilə xotkardan, alaram, elə aparram. Saymaram xotkarı, xanı, qoşuna verməm amanı, meydan içində al qanı döndərrəm selə, aparram. Koroğlu gəlsə damağa, zərbə dözməz sultan, ağa, Qıratı qaldırram dağa, çardaqlı belə aparram (Bax: "Koroğlu", səh. 55; "ქოროღლი", səh. 79). Koroğlunun bu qoşqularında onun xarakterinin və təbiətinin tədricən yenidən qırılması baş verir və o qərib aşıqdan xotkarları və xanları dağıdan (cəsur) döyüşçüyə çevrilir. Və bu dəyişiklik şeirin leksik materialı və poetik obrazlılığı ilə yaxşıca hiss olunur ki, bu da yaradıcının böyük məharətini və istedadını təstiqləyir.

Elə burada vurğulamalıyam ki, süjet məhvərinin bizə təklif etdiyi, bütün epizodlarda aydınca özünü büruzə verən bu qəhrəmanlıq eposunun harmonik mənzərəsinin yaradıcısı Koroğlu ilə Nigar xanım arasındakı yüksək, insani sevgi və mənəvi dostluqdur. Bu epizodlar arasından yalnız onların insani, təbii qarşılıqlı əlaqələrini və qarşılıqlı hörmətini yaxşı əks etdirən birini qeyd edirəm. Nigar xanım görür ki, Koroğlu yenə qızışır. Tez söhbəti zarafata çevirdi, dəlilərə göz basıb dedi: "Koroğlu, biz sənin Koroğlu olmağını bilirik. Əgər bilməsəydik sənin başına yığılmazdıq. Düzdür, igidsən, qoçaqsan, iş üzü bilirsən. Amma belə sir-sifətdən çox qarasan ey!" Dəlilər hamısı gülüşdü. Koroğlunun özü də güldü. Sonra sazı döşünə basıb dedi:

**Mənə qara deyən gözəl,**
**Qaşların qara deyilmi?**
**Tökülübdü dal gərdənə,**
**Saçların qara deyilmi?**

**Çənlibeldə qurduq binə,**
**Bənzəyirsən aya, günə,**
**Ağ üzündə dənə-dənə**
**Xalların qara deyilmi?**

**Koroğlu mayıldı sizə,**
**Qulaq verin saza, sözə,**
**Siyah sürmə ala gözə**
**Çəkibsən, qara deyilmi?** (Bax: "Koroğlu", səh. 313; "ქოროღლი", səh. 356).

Gətirilən gəraylıda yüksək və mehriban məhəbbət hissi sadə insani qarşılıqlı əlaqələrlə və yumorla doludur ki, bu da xalq yaradıcılığının estetik sisteminin əsasını təşkil edir və "sadənin" gözəlliyinin çətin dərk olunan məftunluğundan başqa bir şey deyildir.

Elə ilk sözə qayıdaq: Koroğlu Ərəb Reyhanı döyüşə çağıranda ona belə müraciət edir: Mərdsən gəl meydana, Reyhan, savaşaq indi sənnən mən. Gör gücümü, çək dad, aman, savaşaq indi sənnən mən! Alaq əlimizə nizə, mərdlər əhsən desin bizə, duraq meydanda üzüzə, savaşaq indi sənnən mən! Demə mənə bu hədyanın, yəqin bil ki, allam canın, qılıncla tökərəm qanın, savaşaq indi sənnən mən! Gərək dost-düşməni seçəm, çətin olar qorxam, qaçam, istərəm ki, meydan açam, savaşaq indi sənnən mən! Koroğluyam, durmuşam mərd, yaman ürəyə düşsün dərd, igidsənsə, ol meydangərd, savaşaq indi sənnən mən! (Bax: "Koroğlu", səh. 194-195; "ქოროღლი", səh. 224). Həmzəyə get, amma mənim sifarişimi Hasan paşaya çatdır deyir: "...Qoşunun qıraram, varın talaram, ilxısında bir day qala qoymaram! İçmişəm badəni, indi meyxoşam, Qıratın dərdindən dəli, sərxoşam, sözlərimi eşit, yaxşı bil paşam, dağıdıb ölkəndə qala qoymaram. Qoç Koroğlu ha xışımnan yerisə, duman, çiskin dağlarını bürüsə, nə ki, pərdə altda qızın var isə, gətirərərm, birini qala qoymaram" (Bax: "Koroğlu", səh. 289-290; "ქოროღლი", səh. 330).

Qısası, Koroğlu öz məhəbbət idealını, savaş obyektini və haqsızlığı ilə sırtıqlaşan paşanı fərqli şəkildə dərk edir. Bu fərqli spektr isə normal insan üçün tamamilə aydındır, yenə də ona işarədir ki, Koroğlu sxematik qəhrəman deyil, yer üzərində gəzən insandır. Koroğlunun insani xüsusiyyətləri ondan da xəbər verir ki, Koroğlunu çaya basan, onun öhdəsindən gələn Giziroğlunu tərif edir, göylərə qaldırır (Bax: "Koroğlu", səh. 249, "ქოროღლი", səh. 274-275). Koroğlunun daxili aləminin dərin mənəvi zənginliklərindən həmçinin onun Çənlibelə qarşı xüsusi münasibəti xəbər verir. Birincisi, o, bu dağların alınmazlığını, yağının gələ bilmədiyini yaxşıca anlayır (Bax: "Koroğlu", səh. 61-62; "ქოროღლი", səh. 86-87). Lakin böyüyüb boya-başa çatdığı və ayrılığına dözə bilmədiyi dağlar ilə necə bir mənəvi əlaqəni yaratması daha çox diqqətə layiqdir. O, gözləri dolmuş halda belə müraciət edir:

**"Bir zamanlar səfa sürüb gəzərdim,**
**Onda səndin mənim qardaşım, dağlar!**
**Nə zaman ki, yağı düşmən gələndə,**
**Səndə çox olurdu savaşım, dağlar!**
**...**
**Koroğluyam, gəzdiyimi tapardım,**
**Qayalar başında qala yapardım,**
**Ağ sürüdən əmlik quzu qapardım,**
**Yeyib qurtaranda ulaşım, dağlar!"**
(Bax: "Koroğlu", səh. 522-523; "ქოროღლი", səh. 547).

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 DEKABR
2023-CÜ İL
№ 023 (194)

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# ŞAGİRD VƏ MÜƏLLİMLƏRİN SAYI ARTIB, MƏKTƏBLƏRİN SAYI AZALIB

Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2023-2024-cü tədris ilinin başlanğıcında Gürcüstan məktəblərində müəllim və şagirdlərin sayı artıb.

Ümumtəhsil müəssisələrinin göstəriciləri ilə bağlı hesabata görə, 2023-2024-cü tədris ilinin əvvəlində Gürcüstanın məktəblərində 634,3 min şagird qeydə alınıb. Bu, ötən ilin göstəricisindən 0,2 faiz çoxdur. Məlumata görə, şagirdlərin ümumi sayının 89,5 %-i ictimai, 10,5 %-i isə özəl məktəblərdə təhsil alır. Regionlar arasında ən çox şagird (35,5 %) paytaxt Tbilisinin payına düşür.

Məlumatda bildirilib ki, 2023-2024-cü tədris ilinin əvvəlində ümumtəhsil müəssisələrində 63,7 min müəllim qeydə alınıb. Bu, ötən ilin analoji dövrü ilə müqayisədə 2,2 % çoxdur. Qadın müəllimlər 87,5 %, kişi müəllimlər isə 12,5 % təşkil edir.

Ümumtəhsil müəssisələrinin sayına gəlincə isə, 2023-2024-cü tədris ilində Gürcüstanda məktəblərin sayı azalıb. 2023-2024-cü tədris ilinin başlanğıcında ölkədə 2296 ümumtəhsil müəssisəsi (məktəb) qeydə alınıb. Onlardan 2086-sı ictimai, 210-u isə özəl məktəbdir. Ötən tədris ili ilə müqayisədə ölkədə 6 məktəb azalıb.

Regionlara əsasən ən çox məktəb (17,1 %) İmeretidə qeydə alınıb.

Xidmətin yayımladığı hesabata görə, 2023-cü ildə orta məktəbi 47291 şagird bitirib ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 4,1 faiz çoxdur. 56,6 min şagird ibtidai təhsil alıb, bu da əvvəlki ilin müvafiq göstəricisindən 6,0 faiz azdır. 46,8 min şagird isə baza təhsili alıb, bu da əvvəlki ilin müvafiq göstəricisindən 3,9 faiz çoxdur.

*Mənbə: edu.aris.ge*

**2019-2023-cü illərdə ibtidai, baza və orta təhsil almış şagirdlərin sayı:**




**2019/2020-2023/2024-cü tədris illərinin başlanğıcında ümumtəhsil müəssisələrinin sayı:**




# 2024-CÜ İLDƏN MÜƏLLİMLƏR ÜÇÜN MƏCBURİ TƏLİMLƏR LƏĞV OLUNACAQ



Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari ümumi təhsil islahatının təqdimatında gələn ildən müəllimlər üçün məcburi təlimlərin ləğv ediləcəyini deyib.

Nazirin sözlərinə görə, islahat çərçivəsində sistem müəllimlərə öz ixtisaslarını artırmaq üçün həqiqətən ehtiyac duyduqları xidmətləri təklif edəcək.

“Müəllimlər Evi yanaşmaları konseptual şəkildə tamamilə dəyişəcək və 2024-cü ildən indiyədək mövcud olan məcburi tədris modulları ləğv ediləcək. Sistem müəllimin tələbatının müəyyən edilməsinə, onu dinləməsinə, rəylərinin alınmasına və tələblərin yerinə yetirilməsinə şərait yaradan xidmətlərin təklifinə keçəcək. Hər bir müəllim öz ixtisasını artırmalıdır və buna görə də biz sxemin hazırlanmasında bu prosesi də nəzərə alacağıq”, – deyə Giorgi Amilaxvari bildirib.

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTANDA BEŞ ANA YENİ DOĞULMUŞ ÖVLADINI ÖLDÜRÜB



Gürcüstan Daxili İşlər Nazirliyinin (DİN) hesabatına əsasən, bu ilin ilk 9 ayı ərzində Gürcüstanda 52 nəfər qətlə yetirilib.

Qeyd olunub ki, qətl işlərinin 47-si Gürcüstan DİN tərəfindən açılıb.

Statistikaya əsasən, cari ilin 9 ayı ərzində 5 ana öz yeni doğulmuş körpəsini öldürüb.

Ümumilikdə 982 intihara sövq və 141 ehtiyatsızlıqdan adamöldürmə halı qeydə alınıb.

# GÜRCÜSTANDA RUSİYA VƏTƏNDAŞLARI TƏRƏFİNDƏN 1550 ŞİRKƏT QEYDİYYATDAN KEÇİB



Ukraynada müharibənin başladığı 2022-ci il 24 fevral tarixindən sonra Gürcüstana daimi və ya müvəqqəti yaşayış icazəsi ilə gələn Rusiya vətəndaşları tərəfindən 1550 şirkət qeydiyyatdan keçirilib. Bu barədə Gürcüstanın Ədliyyə Nazirliyindən bildirilib.

Məlumata görə, sözügedən şirkətlərin təsis olunmasında Rusiya Federasiyasının vətəndaşı olan 1957 nəfər iştirak edib və mülkiyyət hüququ onlara məxsusdur.

Ümumilikdə isə sözügedən dövr ərzində 25689 Rusiya vətəndaşı Gürcüstanda fərdi sahibkar kimi qeydiyyata alınıb.

# III RÜBDƏ GÜRCÜSTANA ƏN ÇOX İNVESTİSİYA QOYAN ÖLKƏLƏRİN ADI AÇIQLANIB




Gürcüstanın Milli Statistika Xidmətinin məlumatına görə, cari ilin iyul-sentyabr aylarında Gürcüstan iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyanın 5,2 %-i Azərbaycanın payına düşüb.

Məlumata əsasən, III rübdə Gürcüstana 316 milyon ABŞ dolları sərmaye yatırılıb ki, bunun da 164 milyon ABŞ dollarını Azərbaycan sahibkarları həyata keçirərək 7-ci yeri tutublar.

Rüb ərzində Gürcüstana ən çox ABŞ (51,8 milyon ABŞ dolları), Böyük Britaniya (45,8 milyon ABŞ dolları) və Niderland (45,3 milyon ABŞ dolları) investisiya qoyub.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maariflendirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.